**UOT 821.411.16**

**Ayna ƏLİXANOVA**
AMEA Nizami Gəncəvi adına
Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
aynaalixan@gmail.com

# AZƏRBAYCAN – QƏDİM MULTİKULTURAL DƏYƏRLƏR DİYARI (YƏHUDİ MİLLİ-MƏNƏVİ İRSİNİN QORUNMASI)

**Açar sözlər:** dağ yəhudiləri, milli ədəbiyyat, milli irs, multikulturalizm, tolerantlıq
**Keywords:** mountain jews, national literature, national heritage, multiculturalism, tolerance
**Ключевые слова**: горные евреи, национальная литература, национальное наследие, мултикультурализм, толерантность

**Giriş.** Azərbaycan müxtəlif millətlərin və xalqların əsrlər boyunca qarşılıqlı hörmət, ehtiram və anlaşma şəraitində yaşadığı, fəaliyyət göstərdiyi tolerant bir ölkədir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyasına çevrilmiş millətlərin qarşılıqlı anlaşması, mədəniyyətlərarası dialoq bu ölkədə yaşayan azsaylı xalqların sülh, əmin-amanlıq şəraitində yaşayıb-yaratması üçün əsas vermişdir. Ulu Öndər deyirdi: “Tolerantlıq, dözümlülük çox geniş anlayışdır... O təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir. Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə, dilindən, dinindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq azadlıq, hürriyyət imkanları verir” [1].

Həqiqətən də minilliklər boyu Azərbaycan xalqının tarixində bu məkanda yaşayan müxtəlif milli-etnik qruplar arasında heç bir ayrı-seçkilik olmamış və bu səbəbdən də ciddi ziddiyyətlər yaranmamışdır. Müxtəlif mədəniyyətlərin, fərqli dil və dinlərin vətəni olan Azərbaycan həqiqətən də qoynunda hər bir xalqın övladına bir ana kimi yer ayıra bilmişdir. Bu gün Azərbaycanın daş salnaməsi sayılan bir çox dini abidələr, atəşgah, məscid, kilsə və sinaqoqlar və onların eyni məkanda rahatlıqla insanların ibadət yeri olması söylədiklərimizə canlı sübutdur.

**Qədim multikultural dəyərlər diyarı Azərbaycan.** Bir çox dinlərin, etiqadların vətəni olan Azərbaycanda m.ə. III əsrdə zərdüştilik geniş yayılmışdısa, daha sonrakı əsrlərdə dağ yəhudiləri ilə təmsil olunan yəhudilik dini və ehramları sərbəst fəaliyyət göstərmişdir. Alban tarixçisi Moisey Kalankatuklu m.ə. I əsrdən etibarən dağ yəhudilərinin Qafqazda məskunlaşdığını bildirir. Onlar mənşəcə vaxtilə Assuriya və Babil hökmdarları tərəfindən Fələstindən Midiyaya köçürülmüş İsrail oğulları nəslindəndir. Onlar hələ Midiyada yaşadıqları dövrlərdə tatlarla ünsiyyət quraraq asan anlaşdıqlarından dağ yəhudilərinin dilində qədim arami və yəhudi kəlmələri ilə yanaşı tat dilindən gəlmə sözlər də çoxluq təşkil edir. Dağ yəhudiləri Azərbaycana təxminən 15 əsr bundan əvvəl gəlmiş və əsasən sərhəd bölgələrdə məskunlaşdırılmışlar. Həmin dövrdə Sasanilərin siyasətilə bağlı olaraq atılan bu addım nəticəsində dağ yəhudiləri Azərbaycan xalqının tərkibində yaşasa da, dinlərini, düşüncə tərzlərini, milli-adət və ənənələrini qoruyub saxlaya bilmişlər.

Bu gün də Azərbaycanda yeni eranın ilk əsrlərinin yadigarları olan məscidlərlə yanaşı kilsə, sinaqoq kimi tikililərin izlərinin qorunub saxlanması vaxtilə bu yerlərdə musəvilərlə birgə xristianlığı yaymağa gələn insanların rahat yaşamasından soraq verir. Halbuki Qərb və Avropa ölkələrində məscidlərin yandırılması, dinc müsəlmanlara qarşı zorakılıq işlədilməsi bütün əsrlərdə mövcud olub.

XX yüzillikdə öz müstəqilliyinə yenidən qovuşan Azərbaycanda, Ulu Öndər Heydər Əliyevin müdrik siyasətinin göstəricisi olaraq, mədəniyyətlər və dinlərarası dialoqa həmişə böyük önəm və üstünlük verilmiş, müxtəlif dini və etnik icmaların asudə qardaş kimi birlikdə yaşamasına hər cür zəmin yaradılmışdır. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "İslam – sülh dinidir. Bizim milli və dini dəyərlərimiz bütün məsələlərin həllinə məhz bu cür sülh yoluyla yanaşma tələb edir". Təsadüfi deyil ki, Azərbaycanda Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzini yaratmaqla da ölkə başçısı Azərbaycanda milli və dini tolerantlığın, multikulturalizmin qorunub saxlanmasına xidmət etmiş oldu.

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının "Azərbaycan" qəzetindəki məqaləsində də bu fikir öz düzgün əksini tapmışdır: "Müasir Azərbaycanda tolerantlıq hər ötən gün daha da möhkəmlənən, təkcə cəmiyyətdə deyil, hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində öz əksini tapan dəyərə çevrilmişdir. Azərbaycan Konstitusiyasında, "Dini etiqad azadlığı haqqında" qanunda təsbit edilmiş müddəalar, respublikamızda tolerantlıq, dözümlülük kimi ali dəyərləri möhkəmləndirmək məqsədilə insan hüquq və azadlıqları, o cümlədən vicdan və dini etiqad azadlığı ilə bağlı qanunvericilik bazası beynəlxalq hüquq normalarına tam uyğunlaşdırılmışdır" [3].

Bəli, Azərbaycan əsas etibarilə islam ölkəsi olsa da, digər mədəniyyət və din mənsublarının da rahat ömür sürüb əmək fəaliyyətilə məşğul olduğu ümumi bir vətəndir. Təsadüfi deyil ki, Azərbaycanda yaşayan xalqların "Bir xalçanın rəngləriyik" ədəbiyyat antologiyası kitabı talış, ləzgi, avar, tat, udi, kürd, dağ yəhudiləri, saxur ədəbi nümayəndələrinin əsərlərindən bir buketdir. Dağ yəhudisi Simax Şeyda "İkinci Vətən – Azərbaycan" bölümündə yazır: "Biz, Azərbaycanda yaşayan dağ yəhudiləri bu ölkənin mədəniyyəti və ədəbiyyatından bəhrələnmişik, çörəyini yeyib, suyunu içdiyimiz ölkənin havasıyla nəfəs almış, onu II Vətən bilmişik" [4, s. 295].

**Yəhudi milli mənəvi irsinin qorunması.** Müasir Azərbaycan ərazisində yaşayan dağ yəhudilərinin tarixini araşdıran tədqiqatçı alim professor Yakov Aqarunov "Kiçik xalqın böyük tarixi" adlı kitabında dünyada dağ yəhudilərinin təxminən 2000 nəfərdən ibarət olduğunu və onların İsrail, ABŞ, eləcə də Almaniyada mühacir həyatı sürdüklərini bildirir.

Keçmiş sovet ölkələri arasında yalnız Azərbaycanda yəhudi icmasına normal münasibət göstərilib. Təsadüfi deyil ki, Qubada Qırmızı Qəsəbə, Şamaxı, Göyçay, Oğuz, Bakının Balaxanı kəndində dağ yəhudiləri əsrlər boyu öz dillərini, milli-mənəvi dəyərlərini, ədəbiyyatlarını qoruyub saxlamaqla yanaşı, yeni ədəbi nümunələr də yaratmışlar. Azərbaycanda yaşayan dağ yəhudilərinin istər gündəlik danışıq dilində, istərsə də yazdıqları, qələmə aldıqları bədii əsərlərdə Azərbaycan dilindən alınma sözlər çoxluq təşkil edir. Uzun illər ərzində azərbaycanlılarla doğmalaşan, adət-ənənələrini mənimsəyən dağ yəhudiləri bəzi sözləri heç fərqinə varmadan öz dilinin sözü kimi işlədir və getdikcə bu sözlər, həqiqətən, dilin tərkib

hissəsinə keçir. Əslində bu da çox təbiidir ki, "şairlər, qələm adamları, xalqlar arasında məhəbbət körpüsü yaradan ən duyğulu insanlarda sənət adamı, qələm sahibi yaratdığı əsərləri ilə nümayəndəsi olduğu millətə deyil, bəşəriyyətə xidmət edir" [4]. Görünür bu səbəbdəndir ki, dünya xalqlarının folkloru, laylaları, nağılları, ninni və oxşamaları bir-birinə çox yaxındır. Yazılı ədəbiyyatda da ümumi bəşəri ideyalar söz-qələm əhlinin duyğularını bir məcraya gətirir. Dünyada sülhün, bərabərliyin, barışın bərqərar olması əsl söz-sənət sahiblərinin ən müqəddəs toxunulmaz arzusu və söz dühalarını doğmalaşdıran əsas amildir.

Azərbaycanda yaşayan dağ yəhudilərinin yaradıcılığına yaxından bələd olduqca irili-xırdalı bədii parçaların hər birində bu arzunun işartılarını görmək mümkündür. Dağ yəhudiləri ədəbiyyatının ötən əsrin əvvəllərində yaranmış nümunələri arasında pyes və tamaşa üçün yazılmış librettolara çox rast gəlmək mümkündür. Xüsusilə Cənubi Dağıstan ədəbi məktəbinin nümayəndələri tərəfindən rus və yəhudi dillərində qələmə alınmış belə əsərlərə çox rast gəlinir. Belə ki, Yakov Aqarunovun "Царь, Раввин, богач" ("Падшол, ради və ношир"), Q.Qorskinin "Плоды рук отцу и матери" ("Бəhər dəs bəbə-dədəy"), P.Şerbatovun "Cırn kynya-революционер" ("Kuk Sevdaqor-revolyüsioner") və s. əsərlər ötən əsrin 20-ci illərində Dərbənddə bədii özfəaliyyət dərnəklərində səhnəyə qoyulub. O illərin pyeslərində istər dramaturji süjet quruluşu, istərsə də hadisələrin psixoloji həlli və sadə xalqın içindən seçilmiş qəhrəmanların taleyinə həsr edilməsi baxımından Azərbaycan dramaturgiyasının təsiri duyulmaqdadır.

Bu isə, sözsüz ki, Azərbaycanın müxtəlif ərazilərinə səpələnmiş dağ yəhudilərinə yerli xalqın göstərdiyi diqqət və qayğıyla yanaşı, həm də qarşılıqlı anlaşmanın bədii təzahürüdür. Təsadüfi deyil ki, bütün gəncliyi Azərbaycanda, Qubanın Qırmızı Qəsəbəsində keçmiş, sonralar yalnız ötən əsrin 90-cı illərində vətəni İsrailə köçmüş yazıçı Xananil Abramov "Qubanın dağ yəhudiləri" ("Горские Евреи Кубы") kitabında bu barədə yazır: "Dağ yəhudiləri bu yerlərdə bütün ömrünü çox rahat yaşayıb, öz xırda ticarəti, işi-gücü ilə məşğul ola bilib. Çünki azərbaycanlılar son dərəcə qonaqpərvər, humanist, nəhayət başqa dinlərə hörmət və ehtiramla yanaşan bir xalqın övladları olaraq dağ yəhudilərinə belə əmin-aman həyat sürmələri üçün hər cür şərait yaradırdı. Bu xalqın bizim taleyimizdəki böyük xidmətlərini heç cür inkar etmək, unutmaq olmaz. Var olun, mənim əziz azərbaycanlı qardaşlarım. Mən ürəyimin bir parçasını orada qoymuşam!" [5, s. 49]

X.Abramovun bədii yaradıcılığına da xüsusi yer ayrılıb. Və bu əsərlər ədəbi tənqidin diqqətini çəkə biləcək təsirdədir. Ölkəmizin mədəni-mənəvi irsi və tolerantlıq ənənələrinə malik olması artıq beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Bunun tarixi, yəni dini dözümlülüyün, tolerantlığın dövlət siyasəti səviyyəsində təbliğinin, qorunmasının əsası isə əsrlər boyu davam etməkdədir.

Səfəvilər dövründən başlayaraq XIX-XX əsrlərdəki maarifçilik hərəkatı, eləcə də Xalq Cümhuriyyəti dövründə ölkəmizdə yaşayan müxtəlif etnoslara, dini qrupların nümayəndələrinə heç bir ayrı-seçkilik edilməmiş, onların milli-mədəni dəyərlərinə ehtiramla yanaşılmışdır.

Yəhudi mədəni irsi Azərbaycanda dəyər verilən, qorunub saxlanılan milli-etnik irslərdən biridir. Qeyd etdiyimiz kimi, Azərbaycanda yəhudilərin məskunlaşmasının təxminən 2000 illik tarixi var. Və bu gün yəhudi icması Azərbaycandakı ən fəal və nüfuzlu dini icmalardan sayılır. Təsadüfi deyil ki, bu il (2019) AŞPA-nın payız sessiyasının sonuncu iş günündə Azərbaycanın Avropa Şurasındakı təmsilçisi akademik Rafael Hüseynovun "Yəhudi mədəni irsinin qorunması" adlı məruzəsində

[2] bu yöndə səslənən fikirlər Avropada çox böyük maraq və rəğbətlə qarşılanıb. Azərbaycandan İslandiyaya qədər təxminən 820 milyon insanı əhatə edən, 47 Avropa millətini birləşdirən Avropa Şurası Parlament Assambleyasında yəhudilərin mədəni irsinin qorunmasına plenar iclasın həsr edilməsi özü yaxşı bir faktdır. Çünki dünyanın müxtəlif yerlərindəki dini qarşıdurmalar, müxtəlif siyasi, ideoloji məqsədlər üçün din adı altında tökülən qanlar həqiqətən də ürəksıxıcıdır.

Lakin əhalisinin, demək olar, 95 faizi müsəlman olan qədim Azərbaycanda yəhudilər 2000 ildən çoxdur sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Akademik Rafael Hüseynov məruzəsində əslən yəhudi olan Qərb alimi Rəşidəddin Fərzullanın kitabından rəsmi məlumatlara əsaslanaraq gətirdiyi sitatda Azərbaycanda 2000-dən artıq sinaqoqun fəaliyyət göstərdiyini və bu günə qədər də həmin dini abidələrin qorunub saxlandığını xüsusi qeyd etmişdir:

"Bu gün təkcə Bakıda deyil, Azərbaycanın müxtəlif bölgələrində sinaqoqların fəaliyyət göstərməsi təsadüfi deyil. Bu, yəhudi irsinə yüz illərdən bəri Azərbaycanda göstərilən ehtiramın təzahürüdür. Azərbaycan ərazisindəki yəhudi məzarları da eyni hörmət və ləyaqətlə qorunur. Bu mənada Azərbaycandakı etnik-dini və mədəni müxtəlifliyə münasibət yəhudi mədəni irsinin uğurlu taleyi nümunəsində ciddi şəkildə öyrənilməli, müsbət təcrübə kimi təbliğ edilməlidir" [6].

Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər komitəsinin sədri, AŞPA-nın vitse-prezidenti Səməd Seyidovun başçılıq etdiyi plenar iclasda Azərbaycan parlamentarları Avropada yəhudi mədəni irsinin daha ciddi şəkildə qorunmasını təbliğ etmək üçün ölkəmizdəki müsbət nümunəni əsas götürərək bütün dünyada sülhə və milli irsə ləyaqətli münasibətin ilhamverici modeli kimi təqdim etdilər. Azərbaycan nümayəndə heyətinin digər üzvü, millət vəkili Sevinc Fətəliyevanın da bu yöndə fikirləri maraqlıdır: "Azərbaycanda yəhudi irsinin qorunması məqsədilə bir sıra müştərək təşkilatlar yaradılıb. Xüsusilə Azərbaycan–İsrail Dostluq Mərkəzi, "Soxnut" Yəhudi Agentliyi, yəhudi adət-ənənələrinin qorunması komitələri – "Birgə" və Vaad-L-Xetzola, dini məktəblər, Yəhudi Mədəniyyət Mərkəzi, ölkədə fəaliyyət göstərən "Yeva" qadın cəmiyyəti, "Hesed-Kershon" xeyriyyə cəmiyyəti, "Alef" gənclər klubu, "Hillel" tələbə təşkilatı, bir sıra yeni qəzetlər var. Yəhudi icmalarının köməyi ilə bir çox mədəni tədbirlər keçirilir, yəhudi ədəbiyyatı nəşr olunur. 2010-cu ildə Heydər Əliyev Fondunun "Azərbaycan – dözümlülüyün ünvanı" layihəsi çərçivəsində Bakıda yaşayan yəhudi uşaqlar üçün Khabad-Or-Avner təhsil mərkəzi tikilib. 450 şagirdlik təhsil mərkəzi yəhudi mədəniyyətinin əsaslarını tədris edir. Bu gün Azərbaycanın paytaxtında, eləcə də Quba və Oğuz şəhərlərində onlarla sinaqoq fəaliyyət göstərir. 2003-cü ildə Bakıda açılmış sinaqoq Avropada ən böyük sinaqoqdur. Azərbaycanın Quba şəhərinin yaxınlığında yerləşən, yeddi sinaqoqu olan Qırmızı Qəsəbə – Krasnaya Sloboda Azərbaycanda və ondan kənarda dağ yəhudilərinin maddi və mənəvi mədəniyyətinin inkişafı və qorunması mərkəzi kimi tanınıb. Bu qəsəbənin "Qafqazın Qüdsü" adlandırılması təsadüfi deyil. Yəhudilik ənənələrinin qorunması və inkişafı yəhudi icmasının həyatı ilə ayrılmaz dərəcədə əlaqəlidir. Hazırda fəaliyyət göstərən altıqübbəli sinaqoq "Tövrat"ın səhifələrini oxumaq üçün geniş təlimata (təxminən 70) malikdir. Qırmızı Qəsəbədəki yəhudi icmasının qorunması və inkişafı ilə bağlı Azərbaycan Respublikasının öhdəlikləri Konstitusiyada və parlamentin qəbul etdiyi qanunlarda əksini tapıb. 1991-ci ildə Azərbaycan hökuməti Qırmızı Qəsəbədə yəhudi adət-ənənələrinin öyrənilməsi işinə başlayıb. Son illərdə ümumi təhsil proqramı ilə yanaşı, yəhudiliyin əsaslarını öyrənən bir neçə təhsil müəssisəsi yaradılıb. 2009-cu

ildə qəbul edilmiş "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu etnik azlıqların öz ana dillərində təhsil müəssisələri yaratmaq hüquqlarını təmin edir. Bütün bunlar göstərir ki, Azərbaycanda yəhudi irsinin qorunması həm ənənədir, eyni zamanda, dövlət siyasətinin tərkib hissəsidir [7, s.213].

Həqiqətən də Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində təbliğinin əsaslarını ölkənin dövlətçilik tarixi, bu ənənələrin inkişafı təşkil edir.

**Nəticə.** Azərbaycan çoxmillətli, çoxkonfessiyalı diyar kimi milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük məkanı olaraq dünya miqyasında mədəniyyətlərarası dialoqların bənzərsiz nümunəsi,dəyərli bir örnəyidir. ATƏT, BMT, Avropa Şurası, GUAM, İslam Əməkdaşlıq Təşkilatı kimi mötəbər Beynəlxalq Qurumların tamhüquqlu üzvi olan Azərbaycan Beynəlxalq aləmdə tolerantlıq mühitinin genişlənməsi yönündə qətiyyətli, mütərəqqi addımlar atmaqdadır. Bu isə müasir dövr üçün olduqca aktualdır. Çünki əxlaqa çevrilmiş tolerantlıqdan fərqli bir tolerantlıq mövcuddur. Avropa ölkələrində ola bilsin ki, gəlmələrin hüququ qorunur, ancaq hər addımda yad olduğu hiss etdirilir. Azərbaycanda isə bu artıq bizim milli dəyərimiz –identikliyimizin, alicənablığımızın əlamətidir. Azərbaycançılıq məfkurəsinin əsasıdır. Biz öz milli dəyərlərimizə necə hörmət və ləyaqətlə yanaşırıqsa, dünya xalqlarının mədəniyyətinə, o cümlədən yəhudi milli irsini də eyni ehtiram və sevgi ilə qoruyuruq. Bu, tarix boyu belə olub, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasətini davam etdirən Müstəqil Azərbaycanın uğurlu gələcəyində də belə olacaq!

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Abdulla A. Əl-Fəlah. Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: "Qismət" nəşriyyatı, 2007
2. Akademik Rafael Hüseynovun AŞPA-dakı məruzəsindən: oktyabr, 2019
3. "Azərbaycan" qəzeti, Bakı, 2018
4. "Bir xalçanın rəngləriyik"... Azərbaycanda yaşayan xalqların ədəbiyyat antologiyası. Bakı: "Avropa" nəşriyyatı, 2007, 295 s.
5. İfraim Ü. "Cədvəl Şindler". Bakı: "Azərbaycan", 2011. Ön söz Ənvər Əhmədindir
6. S.Fətəliyeva. AŞPA-dakı məruzəsindən: oktyabr, 2019
7. Seyidov M., Rzayev M. Zamanı qabaqlayan dahi. Bakı, 2008, 315 s.